LDU 1992 LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ

# LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİNİN 2025-2035-Cİ İLLƏR ÜÇÜN STRATEJİ İNKİŞAF PLANI

**Lənkəran Dövlət Universiteti**

**Elmi Şurasının "05.11.2025"-ci il tarixli**

**"03/2025" nömrəli qərarı ilə təsdiq edilmişdir**

**Rektor____________ prof. Natiq İbrahimov**

**LƏNKƏRAN-2025**

## 1. Giriş

Lənkəran Dövlət Universiteti (bundan sonra - LDU) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 403 saylı qərarı ilə yaradılmış, 2024-cü il 7 sentyabr tarixli 417 nömrəli Qərarı ilə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusuna malik olan Lənkəran Dövlət Universitetinə çevrilmə yolu ilə yenidən təşkil edilmişdir.

LDU-nun Strateji İnkişaf Planı universitetin perspektiv dövrü üçün qarşısında duran əsas məqsəd, vəzifə və konkret istiqamətləri formalaşdırmaqla ölkənin təhsil bazarında onun rəqabət qabiliyyətliliyinin təmin edilməsini nəzərdə tutur.

2025–2035-ci illəri əhatə edən yeni inkişaf strategiyası daxili və xarici çağrışlara cavab olaraq universitetin bütün fəaliyyət istiqamətləri (təhsil proqramları, maraqlı tərəflərin: tələbələrin, valideynlərin, işəgötürənlərin, məzunların, professor-müəllim heyətinin, elmi-tədqiqat işlərinin, maliyyə - iqtisadi idarəetmənin, tədris metodiki işlərin, infrastrukturun və informasiya-texniki bazanın keyfiyyətinin yaxşılaşdırılması, kommunikasiya və sosial-tərbiyə siyasəti) üzrə innovasiya yönümlü dayanıqlı sistemin formalaşmasına xidmət göstərir.

Regional elm və təhsil mərkəzi olan LDU-nun Strateji İnkişaf Planı bütün universitet kollektivinin xüsusi təcrübəyə malik aparıcı qüvvələrin, həmçinin digər maraqlı tərəflərin verdiyi rəy və təklifləri əsasında məsuliyyətlə üzərində işləyərək ərsəyə gətirdikləri məhsuldar əməyin nəticəsidir.

Hazırlanmış İnkişaf Strategiyası LDU-nun təhsil xidmətləri bazarında rəqabət qabiliyyətinin yüksəldilməsinə istiqamətlənən zəruri islahatlar, dəyişikliklər ali təhsil müəssisəsinin Strateji İnkişaf Planının reallaşması nəticəsində konkret nailiyyətlərin əldə edilməsinə imkan yaradır. Perspektiv dövr üçün ali təhsil ocağında innovativ universitet modelinin qurulması onun fəaliyyətinin planlaşdırılmasının və strategiyanın işlənib hazırlanması mərhələsində, müvafiq innovativ alətlərdən istifadə edilməsini nəzərdə tutur.

LDU bu Strateji İnkişaf Planı icra etməklə kadr hazırlığı aparılan bütün istiqamətlər üzrə ölkənin və regionun lider universitetlərindən olmağı hədəfləyir.

## 2. Missiya, gələcəyə baxış, məqsəd və dəyərələr

**Missiya:** Universitet innovativ təhsil metodları tətbiq etməklə, beynəlxalq təcrübəni nəzərə alaraq, müxtəlif sahələr üzrə ixtisaslaşmış, bilik və bacarıqlara malik, yeni biliklər əldə etməklə peşəkər inkişafa, liderlik qabiliyyətinə, etik dəyərlərə malik olan, elmi, sosial və mədəni inkişafı dəstəkləyən proqram və layihələr həyata keçirə bilən rəqabətə davamlı kadrlar hazırlamaqdır.

**Gələcəyə baxış:** LDU-nun akademik reputasiyasını artırmaq, milli və qlobal reytinqlərdə yer tutmaqla, daha çox insanın təhsilə çıxışını təmin edə biləcək bir texnologiya və innovasiya mərkəzinə çevrilmək.

**Məqsəd:** Universitetin əsas məqsədi, tələbələrə yüksək səviyyədə təhsil vermək və onları müasir biliklərlə, bacarıqlarla və peşəkar qabiliyyətlərlə təmin etməklə, iş dünyası ilə əməkdaşlığı genişləndirməklə respublikamızın ən nüfuzlu universitetlərindən birinə çevrilmək və beynəlxalq reytinqlərdə yüksək yer tutmaqdır.

**Dəyərlər:**

- **Keyfiyyət:** təhsilin mövcud standartlarına, beynəlxalq normalara, əmək bazarının tələblərinə və dövlətin strateji inkişaf proqramlarına uyğunluğu;
- **Yenilikçilik:** tələbələrin idarəetmədə və qərarların qəbulunda iştirakını təşviq etmək, əmək bazarından gələn innovativ ideyaları qəbul etmək, startapların inkişafını təmin etmək;
- **Davamlı inkişaf:** universitetin bütün strukturlarında ölçülə bilən, qiymətləndirilə bilən və əlçatan inkişaf planı formalaşdırmaq, rəqabətədavamlı mühit formalaşdırmaq;
- **Şəffaflıq və hesabatlılıq:** İllik hesabatların müvafiq icra strukturlarına verilməsi, proseslərin sağlam və şəffaflığını yoxlamaq məqsədilə ictimai şura və digər ictimai birliklərin məlumatlandırılması;
- **Regional inkişafa töhvə:** regionda akademik dəyərlərə və əmək bazarının tələblərinə uyğun mərkəzlərin yaradılması, işəgötürənlərin tələbatına uyğun kadr hazırlığı;
- **Rəqəmsallaşma:** rəqəmsal texnologiyaların tətbiqi ilə tədris və idarəetmənin optimallaşdırılması, elektron xidmətlərdən istifadəsinin təşviqi;
- **İnnovasiyaların tətbiqi:** tədqiqat yönümlü universitet yolunda irəliləmək, idarəetmədə, innovativ yanaşmanın həyata keçirilməsi;
- **Akademik azadlıq:** universitetin akademik heyətinin və tədqiqatçıların tədqiqat, tədris və sosial xidmət fəaliyyətlərində sərbəst olması;
- **Peşəkar etika:** əldə edilən ixtiraların potentləşdirilməsi;
- **Ədalət və bərabərlik:** Bərabərlik və ədalət prinsiplərinə sadiq qalmalı, hər bir tələbə və akademik heyətin statusundan asılı olmayaraq təhsil, tədqiqat və digər fəaliyyət sahələrində bərabər imkanlarının təmin edilməsi;
- **Sosial məsuliyyət:** Cəmiyyətin inkişafına töhvə vermək üçün müxtəlif sosial layihələr həyata keçirməsi.

## 3. LDU-nun güclü və zəif tərəfləri, imkanlar və təhlükələr

**Güclü Tərəflər:**

- Universitetin publik hüquqi şəxs statusunda olması;
- Cənub regionunda əlverişli coğrafi mövqeydə yerləşən çoxprofilli yeganə ali təhsil müəssisəsi olması;
- Universitetin regionda yüksək nüfuz sahibi olması;
- Yüksək ixtisaslı akademik heyətin olması;
- Kampusların olması;
- Sahələr üzrə beynəlxalq əlaqələrin olması;
- Müasir infrasturuktur və laboratoriyaların mövcudluğu;
- Yataqxana infrastrukturunun olması;
- Akademik heyət üçün xidməti mənzillər və qonaq evlərinin olması;
- Turizm təcrübə bazasının olması;
- Elektron Universitet İdarəetmə Sisteminin olması;
- Tələbə təşkilatlarının və dərnəklərinin mövcudluğu;
- Məzunlarla əlaqə və karyera fəaliyyətlərinin səmərəli təşkili;
- İmpakt faktorlu məqalələrə görə mükafatlandırma sisteminin mövcudluğu;
- Diferensial qiymətləndirmə sisteminin olması;
- İkili diplom layihələrinin mövcudluğu;
- Universitetin 2 elmi jurnalının beynəlxalq indeksləmə sistemlərində (Elmi Xəbərlər jurnalının "Humanitar elmlər" seriyası-Index Copernicus, "Texnika və Aqrar elmləri" Beynəlxalq Elmi-Praktik Jurnalı-Agris), eləcə də AAK-ın tövsiyə edilən dövrü nəşrlər siyahısında olması;
- Universitetin QS və THE reytinqlər sistemində nailiyyətlər əldə etməsi;
- Akademik heyətin tərkibində gənc əməkdaşların çox olması;

**Zəif Tərəflər:**

- Büdcənin əsasən təhsil haqları hesabına formalaşması;
- Xeyriyyə fondunun olmaması;
- Yerli və əcnəbi professor-müəllim heyətinin iştirakı ilə qrant əsaslı elmi-tədqiqat proqramlarının az olması;
- Əməkdaşlar içərisində əcnəbi mütəxəssis və ekspertlərin sayının az olması;
- Tələbələr içərisində əcnəbi tələbələrin sayının az olması;
- Elektron sənəd dövriyyəsi sisteminin tam olmaması;

**İmkanlar:**

- Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramının tətbiq olunması;
- Dövlətin təhsil sisteminə diqqət və qayğısının daim artması;
- Azərbaycanın beynəlxalq nüfuzu, ictimai-siyasi sabitliyi, əlverişli coğrafi mövqeyi, multikultural mühitinin mövcudluğu, əcnəbi tələbələrin ölkəyə marağının artması;
- Davamlı peşəkar işəhazırlıq proqramlarının mövcudluğu;
- Ölkədə rəqəmsal transformasiya prosesləri;
- Cəmiyyətin inkişafında təhsilin rolunun artması;
- LDU-nun qabaqcıl universitet kimi cəmiyyət tərəfindən qəbul olunması;
- İş dünyasının universitetlərlə əməkdaşlığa artan marağı;
- Qanunvericiliyin təhsilin müxtəlif səviyyə və formaları üzrə fəaliyyətə imkan verməsi;
- Dövlət və özəl təşkilatların innovasiya və İT sahəsinə olan marağının artması;
- Ölkədə İnnovasiya və Texnopark fəaliyyətlərinin genişləndirilməsi;
- Digər təşkilat və universitetlərlə birgə beynəlxalq elmi tədbirlərin keçirilməsi və elmi-tədqiqatların aparılması imkanları;
- Region üçün Elm və Təhsil mərkəzinə çevrilmək;
- Bölgələrin prioritet istiqamətləri üzrə konsultativ xidmət bazalarının yaradılması və inkişafı;
- Aqrar sahədə kadr hazırlığında dövlət marağının olması.

**Təhlükələr:**

- Ölkədə universitetlərin təklif etdiyi ixtisaslarının eyniliyi;
- Ali təhsil müəssisələri arasında rəqabətin artması;
- Texnoloji transferlə bağlı lokal hədəf bazarın kiçik və ya məhdud olması;
- "Beyin köçü" və ya yüksək ixtisaslı mütəxəssislərin xarici ölkələrə axını;
- Regional əmək bazarının tutumunun nisbətən aşağı olması;
- Bölgədə fəaliyyət göstərən sənaye müəssisələrinin sayının az olması.

## 4. Əsas və alt strateji istiqamətlər

### 1. Təhsil Keyfiyyətinin Yüksəldilməsi

1.1. Təlim metodlarının təkmilləşdirilməsi

1.2. Təhsilalanlar və təhsilverənlərin peşəkar inkişafına dəstək

1.3. Yerli və beynəlxalq akkreditasiyadan keçmə

1.4. Elektron universitet layihəsinin inkişafı

1.5. Regionda fəaliyyət göstərən əmək bazarının nümayəndələrinin tədris prosesinə cəlbi

2. **Elmi-tədqiqat fəaliyyətlərinin gücləndirilməsi**
   2.1. Milli və beynəlxalq qrant proqramlarında iştirak
   2.2. Çoxşaxəli tədqiqat qruplarının yaradılması

3. **Tələbə məmnunluğunun artırılması**
   3.1. Tələbələr üçün əlçatan sistem, mobilliyin inkişafı
   3.2. İkili diplom layihələrinin icrası
   3.3. Məzunlarla vaxtaşırı görüşlərin təşkili
   3.4. Məzun-universitet birliklərinin təşviqi

4. **Rəqəmsallaşma**
   4.1. Elektron sənədlər dövriyyəsinə keçid
   4.2. Elektron idarəetmə sisteminin təkmilləşdirilməsi
   4.3. Süni intellekt texnologiyalarının tədris prosesinə inteqrasiyası
   4.4. Virtual laboratoriya və tədris vasitələrinin artırılması

5. **İnfrastrukturun təkmilləşdirilməsi**
   5.1. Universitet kampusunun genişləndirilməsi
   5.2. Tədris və tədqiqat laboratoriyalarının infrastrukturunun yenilənməsi
   5.3. Poliklinika və laboratoriyaların yaradılması
   5.4. Gəlir təyinatlı infrastrukturun genişləndirilməsi

6. **İdarəetmə və reytinqlərin yüksəldilməsi**
   6.1. İşlək idarəetmə sisteminin optimallaşdırılması
   6.2. Dünya reytinqlərində mövqenin yaxşılaşdırılması
   6.3. Tədqiqat nəticələrinin kommersiyalaşdırılması

7. **Beynəlmiləşmə**

   7.1. Əcnəbi tələbələrin cəlb edilməsi

   7.2. İkili diplom proqramlarının yaradılması

   7.3. Nüfuzlu xarici universitetlərlə akademik əməkdaşlıq

8. **İnklüzivlik**

   8.1. İnklüziv təhsillə bağlı laboratoriya-kabinetlər formalaşdırmaq

   8.2. Əlilliyi olan şəxslərin ali təhsil müəssisəsinə inteqrasiyasının təşviqi

   8.3. Fiziki qüsurlu şəxslər üçün mövcud təhsil standartlarına və normativ qanunvericiliyə uyğun əlçatan təhsilin inkişafı

9. **Dayanıqlı İnkişaf Məqsədləri (SDG)**

   9.1. İqlim dəyişikliyi ilə bağlı maarifləndirmə tədbirlərinin genişləndirilməsi

   9.2. Dayanıqlı enerji istifadəsinin təşviqi

   9.3. Sosial məsuliyyətin yüksəldilməsi

## 5. (2025-2035) Əsas və alt strateji istiqamətlər

| Əsas istiqamətlər | Alt istiqamətlər | Hədəflər | Planlaşdırılan Dövr |
|---|---|---|---|
| **Təhsil Keyfiyyətinin Yüksəldilməsi** | Təlim metodlarının təkmilləşdirilməsi | 40% fənlərə müasir metodların inteqrasiyası və əmək bazarının tələblərinə uyğunluğunu təmin etmək | **2025-2035** |
| | Təhsilalanlar və təhsilverənlərin peşəkar inkişafına dəstək | Mütəmadi təlimlərin keçirilməsi, tələbələrin asudə vaxtının səmərəli təşkili məqsədiylə ardıcıl fəaliyyətin qurulması | **2025-2035** |
| | Yerli və beynəlxalq akkreditasiyadan keçmə | 1 institusional, 5 proqram akreditasiyası və 1 beynəlxalq proqram akreditasiyasından keçmək | **2025-2035** |
| | Elektron universitet layihəsinin inkişafı | Layihənin və müvafiq proqram təminatının mütəmadi yenilənməsini, təhlükəsizlik sistemlərinin təkmilləşdirilməsini təmin etmək | **2025-2035** |
| | Regionda fəaliyyət göstərən əmək bazarının nümayəndələrinin tədris prosesinə cəlbi | Regionda olan 10-a yaxın idarə və müəssisə rəhbərlərinin maraqlı tərəf kimi tədris prosesinə cəlbi | **2025-2035** |
| **Elmi-Tədqiqat Fəaliyyətlərinin Gücləndirilməsi** | Milli və beynəlxalq qrant proqramlarında iştirak | 4 qrant layihəsinə müraciət | **2025-2035** |
| | Çoxşaxəli tədqiqat qruplarının yaradılması | 2 yeni multidissiplinar tədqiqat qrupunun yaradılması | **2025-2035** |
| **Tələbə Məmnunluğunun Artırılması** | Tələbələr üçün əlçatan sistem, mobilliyin inkişafı | Mübadilə proqramlarında fənlərin məzmunlarının tanınmasına nail olmaq, tələbə mobillik komissiyasının yaradılması, tələbələrin sənədlər dövriyyəsinə çıxışının təmin olunması | **2025-2035** |

| | | | |
|---|---|---|---|
| | İkili diplom layihələrinin icrası | İki universitetlə ikili diplom layihəsinin icrasını təmin etmək | **2025-2035** |
| | Məzunlarla vaxtaşırı görüşlərin təşkili | İş dünyasında uğur qazanmış məzunlar və tələbələrlə hər semestrdə 1 dəfə mütəmadi görüşlər təşkil etmək, Universitetdə əmək yarmarkalarının mütəmadi təşkili | **2025-2035** |
| | Məzun-universitet birliklərinin təşviqi | LDU məzunları ictimai birliyinin yaradılmasına nail olmaq, məzunların universitet idarəetməsində iştirakını təmin etmək | **2025-2035** |
| **Rəqəmsallaşma** | Elektron sənədlər dövriyyəsinə keçid | Universitetin 90% bölmələrinin elektron sənəd dövriyyəsinə keçidinin təmin edilməsi | **2025-2035** |
| | Elektron idarəetmə sisteminin təkmilləşdirilməsi | Universitetdə tam avtomatlaşdırılmış idarəetmə platformasının tətbiqi | **2025-2035** |
| | Süni intellekt texnologiyalarının tədris prosesinə inteqrasiyası | 10 fənnin rəqəmsallaşdırılması | **2025-2035** |
| | Virtual laboratoriya və tədris vasitələrinin artırılması | 5 yeni virtual laboratoriyanın yaradılması | **2025-2035** |
| **İnfrastrukturun Təkmilləşdirilməsi** | Universitet kampusunun genişləndirilməsi | Kampus genişləndirilməşi haqqında layihənin təqdim edilməsi | **2025-2028** |
| | Tədris və tədqiqat laboratoriyalarının infrastrukturunun yenilənməsi | Strateji inkişaf planı dövründə 5 laboratoriyanın yenilənməsi | **2025-2035** |
| | Poliklinika və laboratoriyaların yaradılması | 1 poliklinika və 5 laboratoriyanın yaradılması | **2025-2035** |
| | Gəlir təyinatlı infrastrukturun genişləndirilməsi | Mövcud qanunvericiliyə uyğun poliklinika, təsərrüfat və turizm təcrübə bazası və digər sahələrdən gəlirlərin əldə edilməsi | **2025-2035** |

| | | | |
|---|---|---|---|
| **İdarəetmə və Reytinqlərin Yüksəldilməsi** | İşlək idarəetmə sisteminin optimallaşdırılması | İdarəetmə sisteminin yenidən qurulması | **2025-2035** |
| | Dünya reytinqlərində mövqenin yaxşılaşdırılması | QS və THE reytinqlərində yer almaq | **2025-2035** |
| | Tədqiqat nəticələrinin kommersiyalaşdırılması | Bölgənin 2 prioritet istiqaməti üzrə 2 elmi-tədqiqat işinin nəticələrinin kommersiyalaşdırılması | **2025-2035** |
| **Beynəlmiləşmə** | Əcnəbi tələbələrin cəlb edilməsi | Əcnəbi tələbə sayının 100 nəfərə çatdırılması | **2025-2035** |
| | İkili diplom proqramlarının yaradılması | 2 yeni ikili diplom proqramı təklif etmək | **2025-2035** |
| | Nüfuzlu xarici universitetlərlə akademik əməkdaşlıq | Ən azı 30 yeni əməkdaşlıq müqaviləsi | **2025-2035** |
| **İnklüzivlik** | İnklüziv təhsillə bağlı laboratoriya-kabinetlər formalaşdırmaq | 2 tədris binasını inklüziv təhsilə uyğunlaşdırmaq və 2 laboratoriyanı formalaşdırmaq | **2025-2035** |
| | Əlilliyi olan şəxslərin ali təhsil müəssisəsinə inteqrasiyasının təşviqi | Müvafiq maarifləndirici görüşlər keçirmək | **2025-2035** |
| | Fiziki qüsurlu şəxslər üçün mövcud təhsil standartlarına və normativ qanunvericiliyə uyğun əlçatan təhsilin inkişafı | Əlilliyi olan tələbələrin mövcud dərəcələrinə uyğun cari və aralıq imtahanların təşkili, müəllim hazırlığı proqramlarının tədris planlarında inklüziv təhsillə bağlı fənlərin və mövzuların salınması | **2025-2035** |
| **Dayanıqlı İnkişaf Məqsədləri (SDG)** | İqlim dəyşikliyi ilə bağlı maarifləndirmə tədbirlərinin genişləndirilməsi | 5 yeni ekoloji maarifləndirmə layihəsinin həyata keçirilməsi | **2025-2035** |
| | Dayanıqlı enerji istifadəsinin təşviqi | İstifadə üçün alternativ enerji mənbələrinin formalaşdırılması | **2025-2035** |
| | Sosial məsuliyyətin yüksəldilməsi | 10 sosial layihənin həyata keçirilməsi | **2025-2035** |

Bu cədvəl strategiyanın əsas istiqamətlərini, onların alt fəaliyyətlərini, ölçülə bilən hədəfləri və planlaşdırılan dövrü əks etdirir.

## 6. İcra və Monitorinq Planı

SİP-in icrasını təmin etmək məqsədi ilə əsas inkişaf istiqamətləri üzrə illik fəaliyyət planları hazırlanacaq və müvafiq struktur bölmələr tərəfindən illik hesabatlar universitet Elmi Şurasına təqdim ediləcəkdir. Prosesin gedişatı ilə bağlı müvafiq struktur bölmə/bölmələr tərəfindən mütəmadi monitorinqlər həyata keçiriləcək və universitet rəhbərliyi məlumatlanacaqdır.